**Zibeydə Arif qızı Şəkərəliyeva**

**UOT:338.1; JEL: E10.**

# Qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri

***Xülasə***

*Məqalədə müasir qloballaşan dünyada milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması, iqtisadiyyatın diversifikasiyalaşdırılması nəticəsində qeyri-neft sektorunun ixrac potensialının artırılması məsələləri araşdırılır.Həmçinin, burada ölkənin qeyri-neft sektorunun ixrac potensialının artırılması ilə bağlı bu sahədə dövlət dəstəyi mexanizminin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri öz əksini tapır.*

***Açar sözlər:*** *iqtisadiyyat, rəqabətqabiliyyətlilik, investisiya, qeyri-neft sektoru*

## Giriş

Azərbaycanda son on ildə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi üçün genişhəcmli tədbirlər görülüb, dövlətin bu sahədə iqtisadi siyasəti gücləndirilib, çoxlu sayda fərman və sərəncamlar verilib, Dövlət proqramları, strategiya və konsepsiyalar qəbul edilərək reallaşdırılıb. Ölkənin qeyri-neft sektorunun ixrac potensialının müasir dövrdə obyektiv təhlilini və qiymətləndirilməsini təmin etmək üçün, xarici ticarət dövriyyəsininn dinamikası, xarici ticarətdə bu sektorun payı və onun ixrac quruluşu başlıca araşdırma obyekti olmalıdır. Həmçinin, bu istiqamətdə ixrac məmulatlarının dinamikasına, potensialına xüsusi diqqət yetirilməlidir. Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətli olması və dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi üçün xarici iqtisadi əlaqələrin qeyri-neft ixrac sahələri istiqamətində genişləndirilməsi vacibdir.

## Qeyri-neft sektoruun ixrac potensialının tənzimlənməsinin təkmilləşdirilməsi zərurətləri

Qloballaşma proseslərinin dərinləşməsi və genişlənməsi milli iqtisadiyyatların rəqabət qabiliyyətinin artırılmasını və diversifikasiyalaşdırılmasının, əsasən ixrac potensialından səmərəli istifadəni şərtləndirir. Bu məqsədlə hər bir dövlət özünün qlobal iqtisadi strategiyasını işləyib hazırlamalıdır. Belə mövqedən çıxış edərək Ruslan Xasbulatov aşağıdakı tədbirlərin sütərlənirilməsini önəmli hesab edir (3):

- Iqtisadi inkişaf və artımı etibarlı edə biləcək iqtisadi siyasətin işlənib hazırlanması;
- Sabit mal mübadiləsi və dünya bazarlarına çıxışın daha açıqlığının təmin edilməsi;
- Avrasiya ölkələrinin iqtisadiyyatının diversifikasiyalaşdırılmasının stimullaşdırılması.

Son dövrlərdə qloballaşma dünya ticarətinə, milli iqtisadiyyatların ixrac potensialına güclü mənfi təsir göstərə bilmişdir. Bir çox xammal ixracı əsaslı ölkələrin ixrac potensialının dünya qlobal elementləri qarşısında zəifliyi müşahidə edilməkdədir. Belə ki, son maliyyə böhranının nəticələrinin neft ixrac edən ölkələrin iqtisadiyyatının inkişafında bir çox problemlər yaratmışdır. Bəzi ölkələrin gəlirləri əsasən neftdən, neft gəlirləri isə dünya bazarında baş verən qlobal transformasiyalardan birbaşa asılı vəziyyətdədir. Bu ölkələrə daxil olan valyuta ehtiyyatlarının azalması isə, ilk növbədə qeyri-neft sektoru sahələrinin inkişaf sürətinə və onun ixrac potensialına mənfi təsir göstərməkdədir. Belə bir dönəmdə xarici və daxili investisiyaların cəlbində də problemlər üzə çıxır. Qeyri-neft sektorunun prioritet sahələrinin inkişafı üzrə layihələrin maliyyələşdirilməsi çətinləşir və ixrac təyinatlı əmtələrin dünya bazarlarına çıxışı azalır. Bütün bu kimi neqativ amillər isə:



©Zibeydə Arif qızı Şəkərəliyeva i.f.d., Az.DİU "Ticarət və gömrük işinin təşkli" kafedrası
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- ✓ixrac potensialının stimullaşdırılması üzrə ənənəvi dövlət mexanizmlərinin təkmilləşdirilməsi;
- ✓ixracın stimullaşdırılması üzrə əlavə dövlət dəstəyi mexanizmlərin formalaşdırılması;
- ✓bu sahədə mövcud qanunvericilin təkmilləşdirilməsi;
- ✓ixracın strukturunun genişləndirilmə prioritetlərinin müəyyənləşdirilməsi ilə bağlı əlavə tədbirlərə baxılmasını zəruriləşdirir.

E. Süleymanov və A. Zeynalov göstərirlər ki, Azərbaycanın dünya iqtisadi sisteminə sürətli inteqrasiyası və bir çox inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrlə sıx iqtisadi əlaqələri, dünya maliyyə böhranının ölkə iqtisadiyyatına müəyyən mənada təsir etmişdir (4). Neft istehsalçısı olan ölkələr kimi Azərbaycan dünya bazarında neftin qiymətinin ucuzlaşması ilə çox əhəmiyyətli zərərə məruz qalmışdır. Neftin ucuzlaşması dövlət büdcəsinin 70%-nin neft sektoru hesabına formalaşdığı, ixracatının 95%-dən çoxunu neft və neft məhsullarının hesabına təşkil edilməsi ölkə iqtisadiyyatının inkişafı üçün bir çox problemləri də öz yanında gətirməkdədir. Bu məqsədlə neft gəlirlərindən asılılığın azaldılması və qloballaşmanın təsirinə immuniteti artırmaq üçün qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın istehsal sahələrinin yüksək artım templərinə hazırlanması və qeyri-neft sektoru üzrə ixracın stimullaşdırılması vacib hesab edilir.

- ☞ Qeyri-neft sektorun ixrac potensialının təhlili və tənzimlənməsini araşdırarkən ölkə iqtisadiyyatının qlobal təsirlərdən etibarlı qorunmasının təşkili üçün ilk növbədə:
- ☞ ixrac yönümlü istehsal sahələrinin genişləndirilməsini;
- ☞ ixracın stimullaşdırılmasına sistemli yanaşmanın təmin olunmasını;
- ☞ bu sahədə sahibkarlıq subyektlərinin fəallığının artırılmasını;
- ☞ ayrı-ayrı qeyri-neft sektoru sahələrinin investisiya cəlbediciliyinin yüksəldilməsini təkidlə tələb edir.

Azərbaycanda "iqtisadiyyatın təbii diversifikasiyası" və yaxud "üzvi diversifikasiyası" konsepsiyası adı altında ixracın potensialının heç də az olmayan səmərəli yollarını tapmaq olduqca vacibdir. Belə ki, respublikanın təbii resursları, zəngin yeraltı və yerüstü sərvətləri, əmək və intellekt resursları,idarəçilik amilləri kifayət qədərdir. Buna görə də, bir sıra güclü potensiala malik qeyri-neft sektoru sahələrinin potensialından səmərəli istifadə olunmalı və onların ixrac yönümlüyü daha dərindən müəyyənləşdirilməlidir. Bu məqsədlə kimya və neft kimya, metallurgiya, neft və qaz maqşınqayırması, kənd təsərrüfatı bütövlükdə aqrar sektor sürətlə inkişaf etdirilməlidir. Ölkənin ixrac sektorunun diversifikasiyalaşdırılma strategiyası optimallaşdırılmalı, rəqabətdə qlobal meyarlar nəzərə alınmalı, uyğun olaraq tədbirlər müəyyənləşdirilməlidir.

Müasir şəraitdə qeyri-neft sektorunun ixrac potensialından istifadənin daha səmərəli təşkili və yüksəldilməsi yollarından mühümlüyü ilə seçilən prioritetlərdən biri də Azərbaycanın valyuta ehtiyatlarından səmərəli istifadənin təmin olunmasıdır. Bu məqsədlə xarici kapitalın ölkəyə gətirilməsi və investisiyaların cəlbi proseslərində müasir iqtisadi inkişafa adekvat iqtisadi siyasət mexanizmlərinin dövriyyəyə buraxılması, ölkənin xaricə kapital ixrac etmək imkanlarının uzaq perspektivlər nəzərə alınmaqla müəyyən edilməsi zəruri hesab olunar. Z. Səmədzadə göstərir ki, Azərbaycanın son vaxtlar investisiya mühitində vəziyyəti xeyli dərəcədə yaxşılaşdırmışdır. Xarici investorlar tərəfindən ölkəyə marağın artması buna əyani sübüutdur (5). Ölkənin maliyyə imkanlarının ciddi şəkildə güclənməsinə baxmayaraq, dövlət başçısı xarici kapitalın bundan sonra da Azərbaycan iqtisadiyyatının inkişafında iştirakını hərtərəfli dəstəkləyir, eyni zamanda xarici iş adamlarının qeyri-neft sektorunda daha fəal iştirak etmələrini tövsiyyə edir. Azərbaycan iqtisadiyyatının ixrac



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

potensialının möhkəmlənməsini, rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsi istiqamətində görülən işlərin daha da gücləndirilməsi ilə yanaşı, diqqəti ölkəmiz üçün vacib əhəmiyyət kəsb edən bir məsələyə də cəlb etmək vacibdir. Belə ki, maliyyə imkanları və iqtisadi qüdrətin artması nəticəsində Azərbaycanın xarici ölkələrdə investisiya layihələrinin həyata keçirilməsində iştirakı artır. Qeyd etmək lazımdır ki, Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının genişləndirilməsi yolları əsasən respublikamızın beynəlxalq inteqrasiya kanallarına daha fəal çıxması ixracın qeyri-neft sektorları, o cümlədən xidmət sahələri üzrə diversifikasiyalaşdırılmasına imkan yaradılmalıdır. Bu işdə beynəlxalq iqtisadi əməkdaşlıq, təsərrüfat və kooperasiya əlaqələrinə qoşulan milli şirkətlərin ixrac potensialında rolunun yüksəldilməsinin stimullaşdırıması məsələlərinə diqqət yetirilməlidir. Əsasən də, xarici ticarət fəaliyyətinin fəallaşması ilk növbədə ixrac potensialının yüksəlməsinə gətirib çıxaracara bilər, çünki qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsi dövlətin xarici iqtisadi siyasətinin ana xəttini təşkil edir.

R. Mehdiyev qeyd edir ki, ölkə iqtisadiyyatının modernləşdirilməsi üçün ümumi prinsiplərlə yanaşı, iqtisadiyyatın davamlı, qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi prinsipləri də əldə rəhbər tutularaq, Azərbaycanda iqtisadiyyatın modernləşdirilməsinin beş əsas istiqaməti müəyyənləşdirilməlidir (7):

- Milli iqtisadiyyatın innovativ inkişafı. Bu istiqamət Azərbaycan şirkətləri tərəfindən müasir texnologiyaların mənimsənilməsini, rəqabətə davamlı məhsul istehsalının təmin edilməsini və ixrac bazarlarının genişləndirilməsi nəzərdə tutur;
- Bazar təsisatlarının dinamik inkişafının davam etdirilməsi, möhkəmlənməsi və rəqabətinin təmin edilməsi;
- Milli iqtisadiyyatın daha da şaxələndirilməsi;
- İnsan kapitalının yeni keyfiyyətinə nail olunması;
- İqtisadi artımın yeni mənbələrinin yaradılması üzrə tədbirlərin davam etdirilməsi.



**Qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi**

"Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında 2020-ci ildə adambaşına düşən qeyri-neft ixracının həcminin min dollara çatdırılması hədəf kimi götürülmüşdür (1). Azərbaycan son 15 ildə özünün iqtisadi inkişaf modelini, xarici ticarət siyasətini, ixrac konsepsiyasını daim təkmilləşdirməkdədir və bu proseslərdə, şübhəsiz, dünya təcrübəsinin öyrənilməsinə də yer ayrılıb. Azərbaycanda dövlətin özəl sektora, qeyri-neft sektoruna, həmçinin bank sektoruna sistemli dövlət dəstəyi mexanizmləri ilə yanaşması, nisbətən dayanıqlı iqtisadi siyasət formalaşdırlması bu qənaətə gəlməyə imkan verir ki, növbəti illərdə ölkənin kommersiya banklarının kreditləri hesabına müxtəlif real iqtisadi sektorların inkişafının sürətləndirilməsi, onların ixrac potensiallarının artırılması yollarının şaxələndirilməsi intensivləşmək iqtidarında ola bilər. Lakin, hələlik, bu istiqamətdəki səmərəli imkanlar dərindən öyrənilməmiş və sahibkarlıq, biznes subyektlərinin maarifləndirilməsi prosesləri, bu fəaliyyət sxeminin, o cümlədən, bank sektorunun fəaliyyəti üçün əhəmiyyətliliyi geniş təbliğ edilməmişdir. Tədqiqatların nəticələrinə görə, nəqliyyat və rabitə sektoruna yatırılan hər bir manat kredit 4,7 manatlıq əlavə ÜDM yaradır. Tikinti sektoruna yatırılan hər bir manat kredit əlavə 4,5 manatlıq ÜDM əmələ gətirir. Kənd təsərrüfatına yönəldilən 1 manat kreditin artım "multiplikasiya əmsalı" təqribən 4-dür (9).

Son illərdə qloballaşmanın təsir dairəsinin genişləndirilməsi və maliyyə, iqtisadi böhranların fəsadlarının artması prosesləri dünya iqtisadiyyatında yeni meyarların və meyllərin formalaşmasına rəvac vermişdir. Milli iqtisadiyyatın qapalı inkişaf etdirilməsi meylinin sona çatdığını da göstərmək olar. Bu baxımdan hər bir ölkənin çoxşaxəli ixrac potensialının olması mühüm və strateji şərt kimi çıxış edir. Əgər hər hansı bir ölkənin təbii

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ehtiyatları azdırsa və ya milli resurslar baxımından çətinliyi varsa, bu proseslərdə qlobal rəqabətə davam gətirmək üçün çox mürəkkəb vəzifələrin öhdəsindən gəlməlidir.

Müasir dövrdə Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialından istifadənin yüksəldilməsi yolunda hələlik dayanıqlı mövqeyə malik olmadığı özünü biruzə verir. Bu sahədə xeyli mütərəqqi strateji tədbirlərin görülməsi, dövlət proqramların icrası və bir çoxlarının hazırda icra prosesində olması isə bu qənaətə gəlməyə imkan verir ki, yaxın gələcəkdə Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialından istifadənin daha səmərəli, məhsuldar yollarının formalaşdırılması tədbirləri intensivləşə bilər. Belə şəraitdə, qeyri-neft sektorunda ixrac potensialının tənzimlənməsinin təkmilləşdirməsi istiqamətlərinin daha ciddi şəkildə araşdırılması zərurət təşkil edir.

"Azərbaycan Respublikasının milli iqtisadiyyat prespektivləri üzrə Strateji Yol Xəritəsi"ndə göstərildiyi kimi bu vəzifələr və hədəflər heç də asan həll olunası məsələlər deyildir və hazırda 2020-ci il də daxil olmaqla, həmin istiqamətlər üzrə ölkə iqtisadiyyatının, onun müxtəlif sektorlarının, o cümlədən qeyri-neft sektorunun ixrac təyinatlı sahələrinin davamlı inkişafı, bu proseslərdə yüksək nəticələrin əldə edilməsi istiqamətində işlər davam etdirilir (2). Qeyri-neft sənayesinin inkişaf prioritetlərinə aid edilənləri müəyyən edərkən, regionlarda rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən, müasir texnologiyalara əsaslanan müəssisələrin yaradılması, bu ərzilərdə istehsal olunan məhsulların region və dünya bazarlarına ixracına stimul verilməsini əsas prioritet kimi də qəbul olunmalıdır. Müvafiq istiqamətdə müəyyən edilən prioritetlərə aşağıdakıların da aid edilməsi məqsədəuyğun olar:

- Qeyri-neft sənaye sahələrinin iqtisadi rayonlar üzrə inkişafının investisiya siyasətində prioritet kimi nəzərə alınması;
- Xüsusi iqtisadi zonaların, sənaye parklarının və komplekslərinin yaradılmasının davam etdirilməsi;
- Kimya sənayesinin yenidən qurulması və inkişafına nail olunması, onun emal dərinliyinin artıtılması;
- Maşınqayırma sənayesinin inkişafının sürətləndirilməsi, istehsal olunan məhsulların xarici bazarlara çıxarılmasının rəqabətədavamlılığının təmin edilməsi, neft-maşınqayırma sənayesinin inkişafının bərpa edilməsi;
- Zəngin ehtiyatlara malik qara və əlvan metallurgiyanın inkişaf etdirilməsi;
- Yüngül sənayenin inkişafının müasir tələblərə uyğunlaşdırılması, daxili və xarici bazarlarda bu məhsulların rəqabətqabiliyyətinin yüksəldilməsi;
- Yeyinti məhsullarının rəqabətədavamlılığının təmin edilməsi;
- Ölkədə yeni və müasir sahə olan nanotexnologiyaların inkişafına nail olunması.

Qeyd etmək lazımdır ki, uzun illər ölkə iqtisadiyyatında formalaşmış ənənəvi sahələrin və müasir iqtisadiyyat sahələrinin hər birinin ixrac potensialının, bu potensialı formalaşdıran təbii resursların, ilk növbədə, obyektiv dəyərləndirilməsi, onun qiymətləndirilməsi, qanunvericilik baxımından tənzimlənməsi, reallaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi vəzifələri vacibliyi ilə seçilirlər. Azərbaycan öz təbii resurslarından səmərəli istifadədə tarixi nailiyyətlər əldə etsə də (neft-qaz resursları nəzərdə tutulur), bu ölkənin təbii, mineral resurslarınıntam coğrafiyasını və potensialını əks etdirmir. Hələ ki, ölkənin qeyri-neft sektoru sənaye sahələrinin potensialından və ixrac imkanlarından səmərəli istifadə olunmur. Belə ki, Azərbaycanın müasir iqtisadiyyatının xammal yönümlüyü, emal sənayesinin məhsuldarlığının aşağı olması, yeni maliyyə institutlarının iqtisadiyyatın emal



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sənayesinə investisiya yönəldilmələrinə maraqlarının olmaması, emal sənayesinə xarici investorların iqtisadi marağının az olması kimi problemlər yaradır. Hal-hazırda respublikanın qeyri-neft sektorunun ixrac potensialının təkmilləşdirməsi məqsədilə mühüm istiqamət kimi çıxış edən məsələlərdən biri də sahibkarlıq subyektlərinin ixrac fəaliyyəti ilə daha səmərəli və məhsuldar məşğul olmaları problemidir. Belə ki, dövlət tərəfindən sahibkarlığın dəstəklənməsi mexanizmlərinin çoxşaxəliliyinə baxmayaraq, bu sahənin ixrac potensialının artırılması, stimullaşdırılması üçün daha səmərəli istiqamətlərin müəyyənləşdirilməsi və gerçəkləşdirilməsi zərurəti qalmaqdadır. Bu sahənin qeyri-neft sektorunun inkişafında əhəmiyyəti bəllidir və bunlar dövlətin iqtisadi siyasətində daimi olaraq, prioritet istiqamətlər sırasındadır. Belə ki, ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması istiqamətlərində yaxın perspektivdə daha təsirli tədbirlərin görülməsi olduqca vacibdir. Ölkədə mühüm məsələlərdən biri kimi - idxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərin hazırlanmasıdır. Beləliklə, bu sahəyə olan dövlət dəstəyi mexanizmlərinin, qanunvericilik bazasının bir daha müasir beynəlxalq təcrübə və tələblər baxımından təkmilləşdiriləcəyi zamanında Azərbaycan özəl sektorda milli iqtisadiyyatın artımı üçün ciddi mənbələr əldə edər, bir çox müsbət və məhsuldar nəticəələrlə yanaşı, ixrac potensialının, yəni qeyri-neft sektoru ixracının gücləndirilməsində əsaslı dəyişikliklər baş verər.

Azərbaycanın iqtisadi inkişaf meylləri və strateji hədəfləri ölkə iqtisadiyyatının daha da şaxələndirilməsini və modernləşdirilməsini tələb edir. Ölkə iqtisadiyyatın bundan sonrakı inkişaf proseslərinin daha səmərəli və əlverişli təşkili üçün bu proseslərin tənzimlənməsi və təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi məsələləri təkidlə tələb olunur. Bu məqsədlə müasir texnologiyalar, idarəetmə metodları əsaslı innovasiyalaşdırılmış iqtisadi inkişaf modelinə keçidin başa çatdırılması, yeni və məhsuldar rəqabətqabiliyyətli ixracyönümlü müəssisələrin təşkili və bu şəbəkənin genişləndirilməsi vacibdir. Xüsusi olaraq, neft-qaz amilindən yararlanaraq və bu sektorun gəlirlərindən bəhrələnərək, ölkənin qeyri-neft sektorunun inkişafının intensivləşdirilməsi dərəcəsinin əhəmiyyətli səviyyədə artırılmasına nail olmaq lazımdır. Bundan əlavə ölkə iqtisadiyyatının neft və qazla bağlı olmayan potensialının yenidən qiymətləndirilməsi və reallıqlar əsasında mühüm meyarların müəyyən edilməsi respublikada zərurət kimi meydana çıxır. Bu zaman qeyri-neft sektorunun ixrac potensialının artımına imkan verə bilən iqtisadiyyat sektorlarının inkişafının dayanıqlılığının və davamlılığının təmin edilməsi, qeyri-neft ixracının stimullaşdırılması, ixrac potensialının tənzimlənməsinin səmərəli mexanizmlərinin işlənib hazırlanması, təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi məsələləri daha çox aktuallıq kəsb edir. İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektoru sahələrinin rəqabət qabiliyyətililiyinin artırılması, ilk növbədə qeyri neft ixracı mənbələrinin genişləndirilməsi mühüm strateji vəzifələr kimi çıxış edir və bu sahələrin tənzimlənməsinin təkmilləşdirilməsi vacibdir. Qeyri-neft sektorunun səmərəliliyinin, məhsulun keyfiyyətinin, rəqabətqabiliyyətinin artırılmasına və bütövlükdə qeyri-neft sektorunun özünü maliyyələşdirmə sisteminə keçməsi də önəmli hesab oluna bilər.

**Nəticə**

Qeyri-neft sektorunun ÜDM-də və Dövlət Büdcəsində payının artırılması iqtisadiyyatın neft gəlirlərindən asılılığının azaldılması baxımından önəmli hesab oluna bilər. Qeyri-neft ixracının əhəmiyyətli səviyyədə artımı reallaşdırılmayınca, iqtisadiyyatın neft gəlirlərindən asılılığının azaldılmasına nail olmaq xeyli çətin vəzifə kimi xarakterizə olunur. Qeyri-neft sektoru potensialının əsasən regionlarda formalaşdırılmasını da əsas tutaraq, ölkənin qeyri-neft sektorunun ixracının yeni keyfiyyət, kəmiyyət mərhələsinə çıxarılması, bu sahədəki hədəflərin mövcud potensial bazalar əsasında müəyyənləşdirilməsi, dövlət proqramlarında,



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

tədbirlərdə qeyri-neft ixracı hədəflərinin nisbətən konkretləşdirilməsi, dövlət dəstəyi mexanizmlərinin uzun müddətə hesablanmış staretji məqsədlər prinsipi ilə işlənib hazırlanmalıdır.

## Ədəbiyyat

1."Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. Bakı, 2012.
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat prespektivləri üzrə Strateji Yol Xəritəsi". Bakı, 2016.
3.R.Xasbulatov «Международные экономические отношения». M,2012.
4.E. Süleymanov, A. Zeynalov Qlobal maliyyə böhranının Azərbaycan iqtisadiyyatına təsiri Jurnal Qafqaz Universiteti №28, 2009.
5.Z.Səmədzadə "Gələcəyə istiqamətlənmiş strategiya". http:// www.azertac.az(21.11.2007)
6.F.A.Mustafayev "Qeyri-neft sektorunun inkişafında kreditlərin rolunun qiymətləndirilməsi i.ü.f.d-nin avtoreferatı BDU, Bakı, 2013
7.R.Mehdiyev "XXI əsrdə Azərbaycan ideyası kreativ millət konteksində". http://www.yeniazerbaycan.com
8.Ə.X.Nuriyev "Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları B,"Avropa"2013.
9.İ.Alıyev "Ölkədə qeyri-neft sənayesinin inkişaf strategiyası" Azərbaycan qəzeti, 29.01.2019.
10.S.Amanova "Ölkə sənayesinin səmərəliliyinin yüksəldilməsi istiqamətləri.
(http://www.academia.edu).

***Zibayda Arif Shakaraliyeva***

***Use directions of improvement regulation of export potential in the non-oil sector***



***Summary***

*The article examines the increase issues of the competitiveness of the national economy in the modern global world and as a result of diversification of the economy, increase of export potential in the non-oil sector. It also reflected the direction of improving the regulation of state support in the field of export potential increase of the country's non-oil sector.*

***Keywords:*** *economy, competitiveness, investment, non-oil sector*

***Зибейда Ариф кызы Шекаралиева***

***Направления по улучшению использования экспортного потенциала в ненефтяном секторе***

***Резюме***

*В статье рассматриваются вопросы повышения конкурентоспособности национальной экономики в современном глобализированном мире, повышения экспортного потенциала ненефтяного сектора в результате диверсификации экономики. В статбе также отражены направления по совершенствованию регулирования механизмов государственной поддержки для увеличения экспортного потенциала не-нефтяного сектора страны.*

***Ключевые слова****: экономика, конкурентоспособность, инвестиция, не-нефтяной сектор.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:28.11.2019.***
***Çapa qəbul olunub:02.12.2019.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*